DDB Remedy

NOVARTIS

Novartis Pharma Services AG
Branch office in Azerbaijan
Winter Park Plaza, 9th floor,
Rasul Rza 75, AZ 1014
Baku, Azerbaijan
Telephone +994 12 505 5822/33/44
Email : baku.info@novartis.com
https://www.novartis.com

"Yalnız Səhiyyə Mütəxəssisləri üçün. Risklərin idarəolunması proqramı çərçivəsində nəşr edilib. Reklam xarakteri daşımır".

FABHALTA® ▼ (iptakopan) dərman vasitəsi ilə müalicəyə dair təlimat

Bu təlimat yalnız **FABHALTA®** dərman vasitəsi təyin edilmiş pasiyentlər və onlara qulluq edən şəxslər üçün nəzərdə tutulmuşdur. Bu təlimatın məqsədi FABHALTA® dərman vasitəsinə dair mühüm təhlükəsizlik məlumatlarını sizə təqdim etməkdir.

Bu təlimat dərman vasitəsi ilə birlikdə sizə təqdim olunan **istifadəyə dair təlimatı əvəz etmir** – gələcəkdə istifadə etmək üçün bu sənədi saxlayın.

▼FABHALTA® dərman vasitəsi üçün yeni əlavə təsirlərin sürətlə müəyyən edilməsinə kömək etmək məqsədi ilə **əlavə monitorinq sistemi** tətbiq olunur. Hər hansı əlavə təsir ilə qarşılaşdıqda həkiminiz, tibb bacısı və ya əczaçınız/digər səhiyyə mütəxəssisi ilə danışın. Həmin əlavə təsirlərə bu təlimatda və ya dərmanın qablaşdırmasına əlavə edilmiş istifadə təlimatında qeyd olunmayan mümkün əlavə təsirlər də daxildir.

FABHALTA® dərman vasitəsi ilə bağlı hər hansı sualınız və ya narahatlığınız varsa, tibb işçisi ilə məsləhətləşin.

FABHALTA®▼
iptacopan

Giriş

Bu təlimat aşağıdakılar barədə məlumat vermək məqsədilə hazırlanmışdır:

- FABHALTA® dərman vasitəsi və onun təsir mexanizmi haqqında məlumat
- FABHALTA® dərman vasitəsinə dair vacib təhlükəsizlik məlumatları

Bu dərman vasitəsi və ya sağlamlığınız və rifahınızla bağlı hər hansı sualınız və ya narahatlığınız varsa, sizi müalicə edən həkim, tibb bacısı və ya əczaçı/digər səhiyyə mütəxəssisi ilə məsləhətləşin.

Müalicə edən həkim:_____
Tibb bacısı:_____
Əczaçı:_____

PLACEHOLDER: Pasiyent təhlükəsizlik kartı

Sizin "pasiyent təhlükəsizlik kartı"

FABHALTA® dərman vasitəsi ilk dəfə sizə təyin edildikdə, sizə **pasiyent təhlükəsizlik kartı** təqdim olunur.

Cüzdanda daşınacaq ölçüdə olan bu kart FABHALTA® dərman vasitəsini qəbul edərkən **infeksiya riski** və müəyyən əlamət və ya simptomlar yarandıqda nə etməli olduğunuz barədə vacib təhlükəsizlik məlumatlarını ehtiva edir.
Kartda, həmçinin, sizi müalicə edən həkimin və ya xəstəxananın təcili əlaqə məlumatları göstərilir. Əlaqə məlumatları kartı dolduran müalicə edən həkim tərəfindən əlavə ediləcəkdir.

Bu kartı müalicə müddətində və FABHALTA® dərman vasitəsinin son dozasını qəbul etdikdən sonra **2 həftə müddətində təcili hallar** üçün daim yanınızda saxlayın. FABHALTA® dərman vasitəsi ilə müalicə aldığınızı bilmələri üçün kartı tibbi yardımın göstərilməsində iştirak edən hər bir tibb işçisinə göstərin. Bu, onların sizə düzgün diaqnoz qoymasına və müalicə etməsinə kömək edəcək.

Əgər sizə pasiyentin təhlükəsizlik kartı təqdim edilməyibsə, müalicə edən həkiminiz və ya tibb bacınızla əlaqə saxlayın.

"Yalnız Səhiyyə Mütəxəssisləri üçün. Risklərin idarəolunması proqramı çərçivəsində nəşr edilib. Reklam xarakteri daşımır".

Global RMP EM v.1.0 as per EU RMP EM v.1.2.• Local RMP EM v.1.0.
© DDB Remedy 2024

FABHALTA® dərman vasitəsi ilk dəfə təyin edilərkən müalicə edən həkiminiz tərəfindən sizin üçün **pasiyent identifikasiya (ID) nömrəsi** də yaradılmışdır. Bu nömrə pasiyentin təhlükəsizlik kartında qeyd edilməlidir. FABHALTA® dərman vasitəsini əldə etmək üçün bu nömrəni əczaçı ilə paylaşın.

Pasiyent ID nömrəm: _____

Bu təlimata nələr daxildir?

s.4	FABHALTA® dərman vasitəsi haqqında
s.5	FABHALTA® dərman vasitəsi necə qəbul etməliyəm?
s.6	Hansı mühüm təhlükəsizlik riskləri barədə məlumatlı olmalıyam?
s.7	Profilaktik vaksinasiya və ya antibiotik müalicəsi
s.8	FABHALTA® dərman vasitəsinin qəbulunun dayandırılmasından sonra hemolizin inkişafı riski
s.9	Əlavə təsirlər barədə necə məlumat verməliyəm?
s.10	Qeydiyyatdan sonrakı təhlükəsizlik tədqiqatı (PASS) nədir?
s.11	Bilməli olduğunuz faydalı terminlər

Ətraflı məlumat üçün istifadə təlimatına müraciət edin.

"Yalnız Səhiyyə Mütəxəssisləri üçün. Risklərin idarəolunması proqramı çərçivəsində nəşr edilib. Reklam xarakteri daşımır".

Global RMP EM v.1.0 as per EU RMP EM v.1.2.• Local RMP EM v.1.0.

© DDB Remedy 2024

FABHALTA® dərman vasitəsi haqqında

FABHALTA® dərman vasitəsi nədir?

FABHALTA® dərman vasitəsi böyüklərdə qırmızı qan hüceyrələrinin parçalanması nəticəsində yaranan **anemiya (qırmızı qan hüceyrələrinin sayının azalması)** ilə müşayiət olunan **paroksizmal gecə hemoqlobinuriyanın (PNH)** müalicəsində monoterapiya kimi istifadə olunur.

FABHALTA® dərman vasitəsinin tərkibində təsiredici maddə **iptakopan** vardır. O, orqanizmin immun müdafiə sisteminin bir hissəsi olan **"komplement sistemi"nin Faktor B zülalını** hədəfə almaq üçün hazırlanmışdır. İptakopan komplement sisteminin spesifik komponentlərini bloklamaqla təsir göstərən **komplement inhibitorları** qrupuna aid dərman vasitəsidir. FABHALTA® dərman vasitəsi bu yolla immun sisteminizin qırmızı qan hüceyrələrini məhv etməsinin qarşısını alır.

PNH zamanı nə baş verir?
Qırmızı qan hüceyrələri **hemoliz** adlanan proses nəticəsində komplement sisteminiz tərəfindən məhv edilir. Hemoliz qanda hemoqlobinin səviyyəsinin azalmasına (**anemiyaya**) səbəb olur. Bu isə yorğunluq, gündəlik fəaliyyətlərin yerinə yetirilməsində çətinlik, ağrı, qarın ağrısı, sidiyin tünd rəng alması, dispnoe, disfagiya, erektil disfunksiya (impotensiya) və qan laxtalarının əmələ gəlməsi ilə nəticələnə bilər.

FABHALTA® dərman vasitəsi necə təsir göstərir?

FABHALTA® dərman vasitəsi **Faktor B zülalı ilə bağlanaraq onu bloklayır**, bununla da komplement sisteminin aktivliyini azaldır və qırmızı qan hüceyrələrinin məhv edilməsinin qarşısını ala bilər.

Bu dərman vasitəsi hemoqlobinin səviyyəsini normal səviyyələrə qədər yüksəldir (**anemiyanı azaldır**) və PNH-nin digər simptomlarını, məsələn, yorğunluğu və qan köçürülməsinə ehtiyacı nəzarətdə saxlayır.

"Yalnız Səhiyyə Mütəxəssisləri üçün. Risklərin idarəolunması proqramı çərçivəsində nəşr edilib. Reklam xarakteri daşımır".

Global RMP EM v.1.0 as per EU RMP EM v.1.2.• Local RMP EM v.1.0.

© DDB Remedy 2024

FABHALTA® dərman vasitəsini necə qəbul etməliyəm?

Tövsiyə olunan doza bir kapsul (200 mq) **gündə iki dəfə (səhər və axşam)** təşkil edir. Kapsulu bir stəkan su ilə udun.

FABHALTA® dərman vasitəsi qida ilə birlikdə və ya qidadan asılı olmayaraq qəbul edilə bilər.

Heç bir dozanın buraxılmaması vacibdir. FABHALTA® dərman vasitəsini hər gün eyni vaxtda qəbul etməklə dərmanı nə vaxt qəbul etməli olduğunuzu yadda saxlaya biləcəksiz. PNH zamanı qırmızı qan hüceyrələrinin parçalanması ehtimalını azaltmaq üçün FABHALTA® dərman vasitəsi ilə müalicə edən həkiminizin sizə dəqiq təyin etdiyi sxemə uyğun qəbul edin.

Müalicə edən həkiminizlə məsləhətləşmədən FABHALTA® dərman vasitəsinin qəbulunu dayandırmayın.

FABHALTA® dərman vasitəsini qəbul etməyi unutduqda nə etməliyəm?
Bir və ya bir neçə dozanın qəbulunu buraxmısınızsa, **FABHALTA® dərman vasitəsinin bir dozasını yadınıza düşən kimi qəbul edin** (hətta növbəti planlaşdırılmış dozaya az müddət qalmış olsa belə), sonra növbəti dozanı adi vaxtında qəbul edin.

Ardıcıl olaraq bir neçə dozanı buraxmısınızsa, həkiminizlə əlaqə saxlayın. Həkiminiz qırmızı qan hüceyrələrinin parçalanmasının hər hansı əlamətinin olub-olmadığını müşahidə etmək üçün sizi nəzarətdə saxlamağa qərar verə bilər.

FABHALTA® dərman vasitəsinin doza həddinin aşılması zamanı nə baş verə bilər?
Təsadüfən çoxlu sayda kapsul qəbul etmisinizsə və ya başqa bir şəxs təsadüfən sizin dərmanınızı qəbul edibsə, **dərhal müalicə edən həkiminiz və ya tibb bacınız ilə əlaqə saxlayın.**

Ətraflı məlumat üçün istifadə təlimatına müraciət edin.

"Yalnız Səhiyyə Mütəxəssisləri üçün. Risklərin idarəolunması proqramı çərçivəsində nəşr edilib. Reklam xarakteri daşımır".

Global RMP EM v.1.0 as per EU RMP EM v.1.2.• Local RMP EM v.1.0.

© DDB Remedy 2024

Hansı mühüm təhlükəsizlik riskləri barədə məlumatlı olmalıyam?

İnfeksiyanın inkişafı riski

FABHALTA® dərman vasitəsi orqanizmin infeksiyalara qarşı müdafiəsini, xüsusilə **komplement sisteminin aktivliyini** azaldır. Bu isə müəyyən ciddi infeksiyaların yaranma riskini artıra bilər.

Buraya **"kapsullu bakteriyalar"** adlanan spesifik bakteriya növlərinin törətdiyi infeksiyalar daxildir: **Neisseria meningitidis, Streptococcus pneumoniae və Haemophilus influenzae tip B.**

Bu bakteriyaların törətdiyi infeksiyalar burun, boğaz və ağciyərlərə, həmçinin beynin qişalarına təsir edə bilər və bütün qan və orqanizmə yayıla bilər. Ciddi bakterial infeksiyalar sürətlə həyat üçün təhlükəli vəziyyət yarada və vaxtında aşkar edilmədikdə və müalicə olunmadıqda ölüm ilə nəticələnə bilər.

Diqqət etməli olduğunuz ciddi infeksiya əlamət və simptomları:

- **Hərarət**

- Titrəmə və ya üşütmə ilə və ya onlarsız
- Baş ağrısı ilə
- Səpgi ilə
- Döş qəfəsində ağrı və öskürək ilə
- Təngnəfəslik/sürətli tənəffüs ilə
- Ürək döyüntüsünün sürətlənməsi ilə

- **Baş ağrısı**

- Ürəkbulanma və ya qusma ilə
- Boyun və ya beldə gərginlik ilə

- **Huşun pozulması**
- **Qripəbənzər simptomlarla müşayiət olunan bədən ağrıları**
- **Soyuq və nəm dəri**
- **Gözlərin işığa qarşı həssaslığı**

Yuxarıda qeyd olunan əlamət və simptomlardan hər hansı biri sizdə yaranarsa, **müalicə edən həkiminiz ilə əlaqə saxlayın və ən yaxın xəstəxanada dərhal tibbi yardım alın.**

Təhlükəsizlik kartınızı yanınızda saxlayın və əlaqə saxladığınız tibb işçisi PNH müalicənizdə iştirak edən şəxs deyilsə, kartı ona göstərin.

"Yalnız Səhiyyə Mütəxəssisləri üçün. Risklərin idarəolunması proqramı çərçivəsində nəşr edilib. Reklam xarakteri daşımır". Global RMP EM v.1.0 as per EU RMP EM v.1.2.• Local RMP EM v.1.0.

© DDB Remedy 2024

Profilaktik vaksinasiya və ya antibiotik müalicəsi

Vaksinasiya müəyyən ciddi bakterial infeksiyaların yaranma riskini azaldır.

Müalicə edən həkiminiz FABHALTA® dərman vasitəsi ilə müalicəyə başlamazdan əvvəl sizə hansı vaksinasiyaların lazım olduğunu izah edəcək. İnfeksiyanın qarşısını almaq üçün əlavə antibiotik müalicəsinə ehtiyacınız ola bilər.

Sizə vurulmalı olan vaksinlər:

- **Meningokokk vaksini**
- **Pnevmokokk vaksini**

Sizə vurula biləcək vaksin:

- **Haemophilus influenzae tip B vaksini**

Bu vaksinlər meningit, pnevmoniya və sepsis kimi ciddi xəstəliklərdən qorunmağa kömək edə bilər. Ən yüksək səviyyədə qorunmanı təmin etmək üçün bir neçə müxtəlif vaksinasiya tələb olunur.

Bu vaksinasiyaları əvvəllər almısınızsa belə, müalicə edən həkiminiz müalicəyə başlamazdan əvvəl eyni vaksinasiyanın təkrar aparılmasına və ya **gücləndirici (revaksinasiya) dozalara** ehtiyacınızın olub-olmadığını müəyyən edəcək.

FABHALTA® dərman vasitəsi ilə müalicəyə başlamazdan **ən azı 2 həftə əvvəl** bu vaksinasiyaların hamısı sizə vurulmalıdır.

Bu müddət ərzində vaksinasiyanın aparılması mümkün olmadığı halda, həkiminiz bakterial infeksiyaların inkişafının ehtimalını azaltmaq üçün antibiotiklər təyin edəcək. FABHALTA® dərman vasitəsi yalnız həkiminiz və ya əczaçınız düzgün vaksinləri qəbul etdiyinizi və ya müvafiq antibiotik müalicəsi aldığınızı təsdiqlədikdə sizə təqdim ediləcək.

Ciddi infeksiyaların inkişafının qarşısını almağa kömək etmək üçün vaksinlərinizin aktual olması vacibdir. Həkiminiz zərurət olduqda təkrar vaksinasiya olunmağınızı təmin edəcək.

Nəzərə alın ki, vaksinasiya ciddi infeksiyaların yaranma ehtimalını azaldır, lakin onları tamamilə aradan qaldırmır.

Ətraflı məlumat üçün istifadə təlimatına müraciət edin.

"Yalnız Səhiyyə Mütəxəssisləri üçün. Risklərin idarəolunması proqramı çərçivəsində nəşr edilib. Reklam xarakteri daşımır".

Global RMP EM v.1.0 as per EU RMP EM v.1.2.• Local RMP EM v.1.0.

© DDB Remedy 2024

FABHALTA® dərman vasitəsinin qəbulunun dayandırılmasından sonra hemolizin inkişafı riski

FABHALTA® dərman vasitəsinin qəbulunun dayandırılması qırmızı qan hüceyrələrinin **ciddi parçalanması (hemoliz)** riskini artıra bilər. Təyin edilmiş müalicə rejiminə riayət etməyiniz vacibdir.

Diqqət etməli olduğunuz hemoliz əlamət və simptomları:

- Qanda hemoqlobinin səviyyəsinin aşağı olması, qan analizlərində müəyyən edilir
- Yorğunluq
- Sidikdə qan
- Qarın ağrısı
- Təngnəfəslik
- Disfagiya
- Erektil disfunksiya (impotensiya)
- Qan laxtaları (**tromboz**)

Hemolizin hər hansı əlamət və ya simptomunu müşahidə etsəniz, **dərhal tibbi yardım alın.**

FABHALTA® dərman vasitəsinin qəbulunu dayandırmaq istəyirsinizsə, müalicəni dayandırmazdan əvvəl müalicə edən həkiminiz ilə məsləhətləşin.

Dozanı buraxmısınızsa, növbəti dozaya az müddət qalmış olsa belə, onu mümkün qədər tez qəbul edin.

"Yalnız Səhiyyə Mütəxəssisləri üçün. Risklərin idarəolunması proqramı çərçivəsində nəşr edilib. Reklam xarakteri daşımır".

Global RMP EM v.1.0 as per EU RMP EM v.1.2.• Local RMP EM v.1.0.

© DDB Remedy 2024

Əlavə təsirlər barədə necə məlumat verməliyəm?

Bütün dərman vasitələrində olduğu kimi, bu dərman vasitəsi də əlavə təsirlərin inkişafına səbəb ola bilər, lakin bu əlavə təsirlər hər kəsdə müşahidə olunmur.

İstifadə təlimatında qeyd olunan hər hansı əlavə təsir və ya digər əlavə təsirlər, o cümlədən **infeksiyalar və ya ciddi hemoliz** müşahidə etdikdə, bu barədə dərhal tibb işçisinə məlumat verin.

Əlavə təsirlərə şübhə olduğu zaman Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzinin Farmakonəzarət şöbəsinə (Ünvan: AZ1065, Azərbaycan Respublikası; Bakı şəh., Yasamal rayonu, C.Cabbarlı küç.34.; Faks: (+99412) 596-07-16; e-mail: adr@pharma.az; Tel.:(+99412) 596-05-20, Qaynar xətt (+99412) 596-07-12), Mob.: (+99450) 246-93-84 və ya Novartis Pharma Services AG şirkətinin əlavə təsirlər barədə məlumatları qəbul edən xəstələrin təhlükəsizliyi üzrə şöbəsinin elektron poçt ünvanına: *drugs_safety.ukraine@novartis.com* və ya *www.novartis.com/report-* a **müraciət edərək əlaqə saxlamağınız xahiş olunur**

Ətraflı məlumat üçün istifadə təlimatına müraciət edin.

Qeydiyyatdan sonrakı təhlükəsizlik tədqiqatı (PASS) nədir?

Qeydiyyatdan sonrakı təhlükəsizlik tədqiqatı (PASS) dərman vasitəsi təsdiq edildikdən sonra aparılan və dərmanın uzunmüddətli istifadəsi zamanı onun təhlükəsizliyi haqqında əlavə məlumat toplamaq məqsədi daşıyan tədqiqatdır.

FABHALTA® dərman vasitəsi üzrə PASS üçün məlumatlar Avropada və digər ölkələrdə seçilmiş tibb müəssisələrindən toplanacaq.

Əgər sizin tibbi yardım göstərən komandanız FABHALTA® dərman vasitəsi üzrə təşkil edilmiş məlumat toplama prosesində iştirak edirsə, onlar sizi bu barədə məlumatlandıracaq və tədqiqat haqqında ətraflı məlumat təqdim edəcəklər.

Məlumatlarınızın paylaşılmasına razılıq verdiyinizi xüsusi forma imzalamaqla təsdiq etmək imkanınız olacaq.

"Yalnız Səhiyyə Mütəxəssisləri üçün. Risklərin idarəolunması proqramı çərçivəsində nəşr edilib. Reklam xarakteri daşımır". Global RMP EM v.1.0 as per EU RMP EM v.1.2.• Local RMP EM v.1.0.

© DDB Remedy 2024

İştirak etməyə qərar verdiyiniz halda, tibbi yardım göstərən komandanız və ya tibb bacınız diaqnozunuz, müalicəniz və tibbi anamneziniz, eləcə də müalicə zamanı baş verən əlavə təsirlər barədə müəyyən tibbi məlumatları toplayacaq.

İştirakınız **tamamilə könüllüdür** və sizi birbaşa və ya dolayı yolla müəyyən etməyə imkan verə biləcək bütün məlumatlar anonimləşdiriləcəkdir.

Bundan əlavə, siz istənilən vaxt verdiyiniz razılığı geri götürə bilərsiniz.

"Yalnız Səhiyyə Mütəxəssisləri üçün. Risklərin idarəolunması proqramı çərçivəsində nəşr edilib. Reklam xarakteri daşımır".

Global RMP EM v.1.0 as per EU RMP EM v.1.2.• Local RMP EM v.1.0.

© DDB Remedy 2024

Bilməli olduğunuz faydalı terminlər

Anemiya – Qanda qırmızı qan hüceyrələrinin və ya hemoqlobinin səviyyəsinin aşağı olması. Anemiya qanda hemoglobinin səviyyəsinin ölçülməsi ilə müəyyən edilir. Qadınlarda hemoqlobin səviyyəsinin **12 q/dL-dən yuxarı**, kişilərdə isə **13 q/dL-dən yuxarı** olması normal hesab edilir.

Komplement inhibitorları – İmmun sistemin bir hissəsi olan komplement sisteminin aktivliyini azaldan dərman vasitələri.

Komplement sistemi – İmmun sistemin infeksiyalar ilə mübarizə aparmasına və zədələnmiş hüceyrələrin xaric edilməsinə kömək edən hissəsi.

Hemoqlobin – Qırmızı qan hüceyrələrində yerləşən və oksigeni orqanizmdə nəql edən zülal.

Hemoqlobinuriya – Sidikdə hemoqlobinin miqdarının yüksək olması.

Hemoliz – Qırmızı qan hüceyrələrinin parçalanması.

Faktor B – Komplement sisteminin aktivliyini artıran zülal.

Meningit – Beyni və onurğa beynini əhatə edən qoruyucu qişaların (**beyin qişalarının – meninges**) ciddi infeksiyası olub, boyun sərtliyi, baş ağrısı və qızdırma ilə özünü biruzə verir.

Paroksizmal gecə hemoqlobinuriyası (PNH) – Qırmızı qan hüceyrələrinin daha asan parçalanması ilə xarakterizə olunan, anemiyaya və digər ağırlaşmalara səbəb ola bilən nadir və ciddi qan xəstəliyidir.

Pnevmoniya – Bir və ya hər iki ağciyərin ciddi infeksiyası.

Zülal – Orqanizmdə müxtəlif funksiyaları yerinə yetirən iri molekullardır; toxumaların qurulması və bərpası, fermentlərin və hormonların əmələ gəlməsi kimi proseslərdə iştirak edir.

Qırmızı qan hüceyrələri (eritrositlər) – Oksigeni ağciyərlərdən orqanizmin digər toxumalarına nəql edən qan hüceyrələri.

Sepsis – Orqanizmin immun sisteminin infeksiyaya həddindən artıq reaksiyası nəticəsində yaranan və həyat üçün təhlükə yarada bilən sistemli infeksion vəziyyət.

Tromboz – Sağlam qan damarlarında qan laxtalarının əmələ gəlməsi və bunun normal qan axınının qarşısını ala bilməsi.

"Yalnız Səhiyyə Mütəxəssisləri üçün. Risklərin idarəolunması proqramı çərçivəsində nəşr edilib. Reklam xarakteri daşımır".

Global RMP EM v.1.0 as per EU RMP EM v.1.2.• Local RMP EM v.1.0.

© DDB Remedy 2024

Bu buklet **Novartis Pharma AG** tərəfindən hazırlanmışdır. Təqdim olunan məlumatlar yalnız maarifləndirici məqsəd daşıyır və sizi müalicə edən həkim və ya tibbi yardım göstərən komanda tərəfindən verilən məsləhətləri əvəz etmək üçün nəzərdə tutulmamışdır.

Səhiyyə işçilərindən hər hansı şübhəli əlavə təsirlər haqqında Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzinin Farmakonəzarət şöbəsinə (Ünvan: AZ1065, Azərbaycan Respublikası; Bakı şəh., Yasamal rayonu, C.Cabbarlı küç.34.; Faks: (+99412) 596-07-16; e-mail: adr@pharma.az; Tel.:(+99412) 596-05-20, Qaynar xətt (+99412) 596-07-12), Mob.: (+99450) 246-93-84 və ya Novartis Pharma Services AG şirkətinin əlavə təsirlər barədə məlumatları qəbul edən xəstələrin təhlükəsizliyi üzrə şöbəsinin elektron poçt ünvanına: *drugs_safety.ukraine@novartis.com* və ya *www.novartis.com/report-* a məlumat vermələri xahiş olunur.

FABHALTA® dərman vasitəsi ilə bağlı hər hansı sualınız və ya narahatlığınız varsa, Novartis nümayəndəsi ilə əlaqə saxlayın.

Novartis Farma Servises AQ şirkətinin Azərbaycan Respublikasındakı Filialı
Rəsul Rza küçəsi 75, "Winter Park Plaza"
Telefon: +994 12 505 5822; +994 12 5055833.
Elektron ünvan: baku.info@novartis.com AZ1014

"Yalnız Səhiyyə Mütəxəssisləri üçün. Risklərin idarəolunması proqramı çərçivəsində nəşr edilib. Reklam xarakteri daşımır".

Global RMP EM v.1.0 as per EU RMP EM v.1.2.• Local RMP EM v.1.0.

Təsdiq tarixi: 05 Oktyabr 2026

Novartis Pharma Services AG şirkətinin Azərbaycan, Gürcüstan, Özbəkistan ölkələri üzrə dərman vasitələrinin qeydiyyatı şöbəsinin rəhbəri — Elza Hüseynova

Novartis Pharma Services AG şirkətinin Azərbaycan Respublikasındakı Filialı Farmakonəzarət üzrə Məsul şəxsi — Nərminə Novruzova